RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 168 (9047) ÇƏRŞƏNBƏ, 10 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Müsəlman ölkələri arasındakı birliyi, dostluğu möhkəmləndirən idman bayramı

## Konya Hava Limanında qarşılanma



Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyəyə işgüzar səfərə gedib.

2



## Qalib ölkənin nümayəndələri idman yarışlarında da qalib olacaq



Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşüblər.

2

## Azərbaycan xalqı Fələstin xalqı ilə həmrəydir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Konyada Fələstin Dövlətinin Baş naziri Mohammed Ştayyehi qəbul edib.

2

## Türk dünyasında xalqlar arasında əlaqələr güclənir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Konyada Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarı qəbul edib.

2

## Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələri uğurla inkişaf edir



Avqustun 9-da Konya şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında görüş olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev V İslam Həmrəyliyi Oyunlarının açılış mərasiminə dəvətə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür etdi.

Türkiyənin dövlət başçısı da öz növbəsində dəvəti qəbul edib, tədbirdə iştirak etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

3

## Konyadan dünyaya ötürüləcək qardaşlıq mesajları ayrı-seçkiliyin qarşısının alınmasına töhfədir




Avqustun 9-da Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində iştirak edən dövlət, hökumət və nümayəndə heyətləri başçılarının şərəfinə şam yeməyi verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şam yeməyində iştirak edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi və digər rəsmi şəxsləri qarşıladı.

Prezident Rəcəb Tayyib Ərdoğan dövlət, hökumət və nümayəndə heyətləri başçıları ilə söhbət etdi.

3

## V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi



4

## Birinci vitse-prezident Mehriban Əliyeva İslamiadanın açılış mərasimindən foto və video paylaşıb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimindən video və foto paylaşıb.

## Komandamız növbəti medalını üçtəkanla tullanma yarışında qazanıb

Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunları davam edir. AZƏRTAC xəbər verir ki, idmançılarımız komandamızın aktivinə daha bir medal yazdırıblar. Belə ki, atletikanın üçtəkanla tullanma proqramında Azərbaycan idmançısı Aleksis Kopello gümüş medal qazanıb.

7



## İkinci medalı taekvondoçumuz qazandı

Türkiyənin Konya şəhərində keçirilən İslam Həmrəyliyi Oyunlarında taekvondo yarışlarına start verilib. Yarışın ilk günündə dörd idmançımız mübarizəyə qoşulub.

Taekvondoçularımızdan Səyyad Dadaşov (54 kq) və Həşim Məhəmmədov (58 kq) mübarizəyə uğurla başlayaraq ilk döyüşlərində qələbə qazanıblar. Həşim ikinci qarşılaşmasında pakistanlı rəqibi Xan Haruna qalib gələrək yarımfinala vəsiqə alıb.

7

# Müsəlman ölkələri arasındakı birliyi,

# Qalib ölkənin nümayəndələri idman yarışlarında da qalib olacaq

## Konya Hava Limanında qarşılanma



Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyəyə işgüzar səfərə gedib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Konya şəhərinin hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkiyənin gənclər və idman naziri Mehmet Kasapoğlu, Konya valisi Vahdettin Özkan və digər rəsmi şəxslər qarşıladılar.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsini salamladı.

## Azərbaycan xalqı Fələstin xalqı ilə həmrəydir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Konyada Fələstin Dövlətinin Baş naziri Mohammed Ştayyehi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Mohammed Ştayyeh Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mahmud Abbasa çatdırmağı xahiş etdi.

Mohammed Ştayyeh Azərbaycanın Fələstinə göstərdiyi həmrəyliyə, verdiyi dəstəyə və humanitar yardımlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. İkitərəfli əlaqələrimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini deyən Baş nazir İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstəyi vurğuladı. Fələstin Dövlətinin Baş naziri Azərbaycanın bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə bağlı təbriklərini çatdırdı. Mohammed Ştayyeh Azərbaycanın Fələstində səfirliyinin açılması ilə əlaqədar məsələ qaldırdı.

Xoş sözlərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycan xalqının Fələstin xalqı ilə həmrəy olduğunu qeyd etdi. Prezident İlham Əliyev Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın ölkəmizə səfərini və onunla təmaslarını məmnunluqla xatırlayaraq siyasi, iqtisadi, təhsil, mədəniyyət, idman sahələrində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev fələstinli tələbələrin ölkəmizdə təhsil almasına toxunaraq onlara dövlət tərəfindən ayrılan qrantları vurğuladı və Azərbaycanın bu qrantları artırmağa hazır olduğunu bildirdi.

## Türk dünyasında xalqlar arasında əlaqələr güclənir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Konyada Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə türk dünyasında xalqlar arasında əlaqələrin möhkəmlənməsi işinə xidmət edən V İslam Həmrəyliyi Oyunlarının türkiyədə keçirilməsinin önəmi vurğulandı. Bu mötəbər beynəlxalq idman tədbirinin Bakıda da yüksək səviyyədə təşkil olunduğu məmnunluqla qeyd edildi.

Söhbət zamanı türk dünyası xalqlarının bir-biri ilə tarixi bağlılığına söykənən əlaqələrin humanitar, mədəniyyət, təhsil, idman sahələrində genişlənməsinin əhəmiyyətinə toxunuldu.

---

Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşüblər.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Əziz idmançılar, əziz dostlar.

Mən indicə Konya Hava Limanında yerə enmişəm və hava limanından dərhal buraya, sizinlə görüşə gəlmişəm. Bu, bir ənənədir. Hər dəfə mötəbər beynəlxalq yarışlar ərəfəsində idmançılarla görüşüb onlarla söhbətləşirəm. Bu dəfə də istisna deyil.

Bu dəfə V İslam Həmrəyliyi Oyunlarında siz Azərbaycanı təmsil edəcəksiniz. Əminəm ki, ləyaqətlə təmsil edəcəksiniz. Çünki bizim idmançılar artıq bütün beynəlxalq yarışlarda öz gücünü təsdiqləmişlər. Azərbaycan bu gün dünyada güclü idman ölkəsi kimi tanınır və bizim qələbələrimiz həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında artıq adi hala çevrilib. Azərbaycan azarkeşləri də bir növ buna öyrəşiblər. Əminəm ki, idmançılarımız bu dəfə də gözəl nəticə göstərəcəklər. Artıq birinci qızıl medalımız var. Komandanı bu münasibətlə təbrik etmək istəyirəm. Oyunların rəsmi açılış mərasimi bu gündür, amma oyunlar artıq davam edir. Əminəm ki, bu gözəl nəticə digər idmançılar üçün də gözəl bir stimul olacaq.

Bu dəfə bu oyunlar Bakıdan sonra Konyada keçirilir, qardaş ölkədə keçirilir. Əminəm ki, siz özünüzü burada evinizdəki kimi hiss edirsiniz. Əlbəttə ki, bu oyunların Türkiyədə keçirilməsi bizim üçün əlavə imkanlar yaradır. Əlbəttə, biz çox şadıq ki, bu oyunlar qardaş Türkiyədə keçirilir. Əminəm ki, bu oyunlar həm idman bayramı, həm də İslam həmrəyliyi bayramı kimi yadda qalacaq. Beş il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında bizim komandamız çox gözəl nəticə göstərmişdir, komanda hesabında birinci olmuşdur. Eyni zamanda Bakıdakı oyunlar islam həmrəyliyinin güclənməsinə təkan vermişdir. Çünki müsəlman ölkələrinin idmançıları bir müddət bir-biri ilə sıx təmasda olmuşlar. Əminəm ki, burada da siz yeni dostlar tapacaqsınız. Çünki bu oyunlar həm idman yarışıdır, həm də ki, müsəlman ölkələri arasındakı birliyi, həmrəyliyi, dostluğu möhkəmləndirən amildir.

Onu da qeyd etməliyəm ki, ilk dəfə olaraq Azərbaycan idmançıları İslam Həmrəyliyi Oyunlarında qalib ölkəni təmsil edəcəklər. Bu, hamımız üçün böyük qürurverici hadisədir. Çünki biz artıq müzəffər xalqın nümayəndələri, qalib ölkənin nümayəndələri kimi bu oyunlarda iştirak edəcəyik. Döyüş meydanlarında əldə edilmiş Qələbə idman yarışlarında da özünü əks etdirəcək.

Bir sözlə, əziz idmançılar, mən sizi ürəkdən salamlayıram, sizə uğurlar arzulamaq istəyirəm. Əminəm ki, hər zaman olduğu kimi, Azərbaycanın idman bayrağı, idman şöhrətimiz yüksəklərdə olacaq və siz Vətənə qələbələr, müvəffəqiyyətlər, uğurlarla qayıdacaqsınız. Təbrik edirəm.















❖ ❖ ❖

Gənclər və idman naziri **Fərid QAYIBOV** dedi:

- Çox hörmətli cənab Prezident.

Hörmətli Mehriban xanım.

İcazə verin, nümayəndə heyəti adından Sizi Atletlər Kəndində salamlayım. Sizin daimi qayğınıza görə təşəkkürümüzü bildirmək istərdik. Sizin tapşırığınızla atletlər üçün hər cür şərait yaradılıb və komandamız hazırdır. Qeyd etdiyiniz kimi, artıq bizim ilk medalımız var, dünən Anna Skidan qızıl medal qazanıb.

Güləşçi **Rafiq HÜSEYNOV:** Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım. Mən komanda yoldaşlarım adından, həm də eyni zamanda öz adımdan Sizi salamlayıram. Çox sağ olun ki, dəyərli vaxtınızı ayırıb bizimlə maraqlanırsınız. Mən əminəm ki, Sizinlə görüş bizə əlavə ruh yüksəkliyi verəcək və eyni zamanda bizim çıxışlarımıza çox müsbət təsir edəcək. Sevinirəm ki, cənab Prezident şəxsən özü bizimlə maraqlanır. Sizə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV**: Sağ olun.

Stend atıcısı **Rigina MEFTAHƏTDİNOVA:** Cənab Prezident, salam. Mehriban xanım Sizi salamlayıram. Mən idmançı ailəsində böyümüşəm. Olimpiya çempionu Zemfira xanım Meftahətdinovanın qızıyam. Özüm də bu idmanla məşğulam. Mən çox fəxr edirəm ki, Siz bizə həmişə diqqət, qayğı göstərirsiniz. Çox olun, Sizə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Sizə uğurlar arzulayıram.

**Mehriban xanım ƏLİYEVA:** Anna Skidan qızıl medal alıb.

**Prezident İlham ƏLİYEV:** Qızıl medal, təbrik edirəm.

**Anna SKİDAN:** Sağ olun.

**Mehriban xanım ƏLİYEVA:** Təbrik edirik, sizinlə fəxr edirik.

❖ ❖ ❖

Xatirə şəkilləri çəkdirildi.

❖ ❖ ❖

Velosipedçi **Elçin ƏSƏDOV:** Cənab Prezident, mən Elçin Əsədovam. Şuşada beynəlxalq velosiped idmanı yarışının qalibiyəm. Çox fəxr edirəm. Orada qürur duyduq, "dəmir yumruq"la. Çox sağ olun, cənab Prezident, minnətdaram.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Paralimpiyaçı:** Allah razı olsun, bizim üçün hər cür şərait yaradılıb. Keçmiş müharibə veteranı kimi, inşallah, burada da bayrağımızı ucaldarıq.

**Prezident İlham ƏLİYEV:** İnşallah. Paralimpiyaçılarımız da Paralimpiya Oyunlarında yaxşı nəticə göstərmişdilər.

❖ ❖ ❖

Qeyd edək ki, V İslam Həmrəyliyi Oyunları 2021-ci ildə keçirilməli idi, lakin qlobal pandemiya səbəbindən yarış bir il təxirə salındı.

Oyunların məhz Konyada keçirilməsi təsadüfi deyil. Qədim tarixi olan Konya şəhəri həm də islam sivilizasiyasının mühüm mərkəzlərindən sayılır. Böyük təsəvvüf şairlərindən olan Cəlaləddin Ruminin türbəsi zahidlər üçün ziyarətgahdır. Ümumiyyətlə, Konya müxtəlif mədəniyyətlərin bir araya gəldiyi harmonik ruha sahibdir.

Avqustun 18-dək davam edəcək V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən atletlər idmanın 24 növü üzrə 483 dəst medal uğrunda mübarizə aparırlar. Azərbaycanı İslamiadada 281 idmançı təmsil edir. Onlar ağır atletika, atıcılıq, atletika, basketbol 3x3 (qadınlar və kişilər), cüdo, futbol, güləş, gimnastika, aerobika, bədii gimnastika, həndbol (qadınlar və kişilər), karate, kikboksinq, qılıncoynatma, oxatma, para-oxatma, para-atletika, para-üzgüçülük, stolüstü tennis, taekvondo, velosiped, voleybol (qadınlar və kişilər) və üzgüçülük yarışlarında güclərini sınayırlar.

2017-ci il mayın 12-22-də Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunları Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident və Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində bütün dünyaya nümayiş etdirdi ki, islam aləmi bir ola bilir və bu birlik gücümüzü daha da artırır.

"Bakı-2017"də Azərbaycan idmançıları 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci oldular. Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn (21 medal) isə beşinci yerdə qərarlaşdı.

# dostluğu möhkəmləndirən idman bayramı

## Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Konyada Mövlanə muzeyini ziyarət ediblər











Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva avqustun 9-da Türkiyənin Konya şəhərində Mövlanə muzeyini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, Konya Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəhbəri Əbdülsəttar Yarar Birinci vitse-prezident Mehriban Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya muzey barədə məlumat verdi.

Bildirildi ki, türk və islam dünyalarının ən böyük sufilərindən olan Mövlanə Cəlaləddin Ruminin Konyanın Karatay səmtində yerləşən muzeyi 1926-cı ildən Mövlanənin yaşadığı bina kompleksində fəaliyyət göstərir. Mədəniyyət ocağı həm də "Mövlanə türbəsi" kimi tanınır. Hündürlüyü 25 metr olan türbə dörd qalın - "fil ayaq" adlanan sütunlar üzərində tikilib. Türbənin əsas günbəzi firuzəyi rəngli olduğundan "Yaşıl qübbə" adlandırılır. İçəridən piramida formalı olub üç tərəfi açıq, cənub tərəfdən isə divarlarla örtülü olan türbənin üstü qızılı ulduzlar, zeminləri isə müxtəlif rənglərlə boyanıb. Qübbənin yuxarısında ağ xətlə "Bismillah" və "Ayətül kürsü" həkk edilib.

Qeyd edildi ki, muzeydə Mövlanə ilə oğlu Sultan Velədə aid iki məzar var. Burada Osmanlı dövründə hədiyyə olunan nadir əsərlər nümayiş etdirilir. Ekspozisiyanın 4 qapısı - "Dərviş", "Hamuşan", "Çələbiyan" və "Pir" qapıları mövcuddur. Türbənin önündə Osmanlı dövrünün dövlət xadimlərindən olan Mahmud Paşa tərəfindən tikilən gümüş qəfəs var.

Diqqətə çatdırıldı ki, kompleksdə yer alan məsciddə Qaramanoğulları və Osmanlı dövrlərinə aid əlyazma, "Qurani-Kərim"in nüsxələri, məsnəvilər və miniatür əlyazmaları ilə xalı səccadələr nümayiş etdirilir.

Vurğulandı ki, "Tilavət" adlanan otaq hazırda muzeyin xəttatlıq sənəti nümunələrinin nümayiş olunduğu bölmə kimi fəaliyyət göstərir. Ekspozisiyada Osmanlı dövrünün məşhur xəttatlarından sayılan Mahmud Cəlaləddin, Mustafa Raqim, Hülusi, İzzət, Yesarizad, Sultan II Mahmud kimi xəttatların lövhələri də var.

Daxil-i Üşşaq salonuna gümüş qapılardan daxil olurlar. Üstü üç qübbə ilə örtülmüş bu sahənin şimal tərəfində Xorasan ərlərinə aid tabutlar və gümüş qəndillər var.

Sonda qarşılıqlı hədiyyələr təqdim olundu.



## Konyadan dünyaya ötürüləcək qardaşlıq mesajları ayrı-seçkiliyin qarşısının alınmasına töhfədir











Avqustun 9-da Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində iştirak edən dövlət, hökumət və nümayəndə heyətləri başçılarının şərəfinə şam yeməyi verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şam yeməyində iştirak edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi və digər rəsmi şəxsləri qarşıladı.

Prezident Rəcəb Tayyib Ərdoğan dövlət, hökumət və nümayəndə heyətləri başçıları ilə söhbət etdi.

Sonra şam yeməyi oldu.

Tədbirdə çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini salamlayaraq dedi: "V İslam Həmrəyliyi Oyunları ilə əlaqədar bu qardaşlıq süfrəsi ətrafında sizinlə birlikdə olmaqdan böyük məmnunluq duyuram. Həzrət Mövlanənin şəhəri Konyamıza hamınız xoş gəlmisiniz. Sizin şəxsinizdə islam dünyasının müxtəlif bölgələrindən oyunlarda iştirak edən bütün idmançılarımıza və komandalarımıza da "Xoş gəldiniz!" deyirəm.

İslam Həmrəyliyi Oyunlarının sonuncusunu əziz Qardaşım İlham Əliyevin və hörmətli birinci xanım Mehriban Əliyevanın evsahibliyi ilə 2017-ci ildə Azərbaycanda keçirmişdik. Azərbaycanlı qardaşlarım hər baxımdan uğurlu evsahibliyinə imza atmışdır".

Prezident Rəcəb Tayyib Ərdoğan pandemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılmasından sonra V İslamiadanın keçirilməsindən məmnunluğunu ifadə etdi, oyunlara marağın böyük olduğunu vurğuladı. Dünyada gərginliklərin, iqtisadi çətinliklərin yaşandığını, müsəlmanlara qarşı bütün sahələrdə ayrı-seçkiliyin ciddi narahatlıq doğurduğunu vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan Konyadan bütün dünyaya ötürüləcək qardaşlıq mesajlarının bu ayrı-seçkiliyin qarşısının alınmasına töhfə verəcəyinə əminliyini bildirdi.

Türkiyə Prezidenti bütün komandalara və idmançılara uğurlar arzuladı.

## Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələri uğurla inkişaf edir

Avqustun 9-da Konya şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında görüş olub.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev V İslam Həmrəyliyi Oyunlarının açılış mərasiminə dəvətə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür etdi.

Türkiyənin dövlət başçısı da öz növbəsində dəvəti qəbul edib, tədbirdə iştirak etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı eyni zamanda İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkili ilə bağlı təbriklərini çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı.

Rəcəb Tayyib Ərdoğan Qarabağdakı son hadisələrlə əlaqədar bir daha Türkiyənin dəstəyini ifadə etdi və şəhidlərlə bağlı başsağlığı verdi.

Dövlətimizin başçısı dəstəyə və başsağlığına görə təşəkkür etdi.

Görüşdə bölgədə postmünaqişə dövrü ilə bağlı fikir mübadiləsi aparıldı, eyni zamanda iqtisadi, enerji, nəqliyyat və hərbi sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

# Müsəlman ölkələri arasındakı birliyi, dostluğu möhkəmləndirən idman bayramı

## Konyada V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi keçirilib

### Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər











Avqustun 9-da Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Açılış mərasiminin keçirildiyi Konya Böyükşəhər Bələdiyyəsi Stadionunun üzərində "Türk Yıldızları" aerobatika komandalarının nümunəvi pilotaj uçuşları möhtəşəm mərasimin iştirakçılarına xoş anlar yaşadıb.

Sonra Livan əsilli isveçli müğənni Maher Zain konsert proqramı ilə çıxış edib. Konsert zamanı dron və işıq effektləri mərasimə xüsusi rəng qatıb.

Daha sonra müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub.

Bu möhtəşəm tədbirin tamaşaçıları arenaya daxil olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı, Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını hərarətlə alqışladılar.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə qısa söhbət etdi.

Mərasimdə əvvəlcə səhnəyə çıxan rəqqaslar V İslam Həmrəyliyi Oyunlarının loqosunu canlandırdılar. Oyunlar üçün xüsusi olaraq lalə formasında hazırlanmış loqo özündə 21 rəqəmini simvolizə edir. Loqoda həmçinin ərəb dilində "qardaş" sözünü bildirən "أخ" sözü də yer alıb.

Açılış mərasimində Türkiyə tarixinin müxtəlif dövrlərini və mədəni zənginliklərini əks etdirən kompozisiya nümayiş olundu. Kompozisiyanın sonunda işıq effektləri vasitəsilə səhnədə Türkiyə bayrağı və ay-ulduz fiquru təcəssüm etdirildi. Ardınca hərbçilər Türkiyənin Dövlət Bayrağını səhnəyə gətirdilər. Bayraq Türkiyənin Dövlət himni - "İstiqlal Marşı"nın sədaları altında qaldırıldı.

Bayrağın qaldırılmasından sonra "Konya-2021" V İslam Həmrəyliyi Oyunlarının könüllülərinin və komandaların paradı oldu.

Komandalar ölkələrin adlarının baş hərflərinə uyğun qaydada əlifba sırası ilə meydana daxil oldular. Əvvəlcə Əfqanıstan idmançılarının keçidi oldu. Azərbaycan atletləri meydana dördüncü daxil oldular.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva komandamızın üzvlərini hərarətlə alqışladılar.

Açılış mərasimində Azərbaycanın üçrəngli bayrağını atlet Nazim Babayev və voleybolçu Ayşən Abduləzimova apardılar.

Nazim Babayev Avropa çempionu, IV İslam Həmrəyliyi Oyunlarının qalibi, Qış Universiadasının ikiqat qalibi, Yeniyetmələrin Yay Olimpiya Oyunlarının bürünc medalçısıdır. Ayşən Abduləzimova isə qadın voleybolçulardan ibarət Azərbaycan millisinin kapitanı, "Çağırış" kubokunun, "Qızıl Avropa" liqasının və IV İslam Həmrəyliyi Oyunlarının qalibidir.




Azərbaycanı İslamiadada 281 idmançı təmsil edir. Onlar ağır atletika, atıcılıq, atletika, basketbol 3x3 (qadınlar və kişilər), cüdo, futbol, güləş, gimnastika, aerobika, bədii gimnastika, həndbol (qadınlar və kişilər), karate, kikboksinq, qılıncoynatma, oxatma, para-oxatma, para-atletika, para-üzgüçülük, stolüstü tennis, taekvondo, velosiped, voleybol (qadınlar və kişilər) və üzgüçülük yarışlarında güclərini sınayırlar.

Komandaların keçidini ev sahibi - Türkiyə atletləri tamamladılar. Qardaş ölkəni bu yarışlarda 461 atlet təmsil edir.

Prezident Rəcəb Tayyib Ərdoğan, Prezident İlham Əliyev, digər dövlət və hökumət başçıları, azarkeşlər Türkiyə idmançılarını hərarətlə salamladılar.

Sonra Konya bölgəsinə məxsus "Qaşıq havası" rəqsi ifa olundu.

Adlarını Türkiyənin idman tarixinə qızıl hərflərlə yazdıran səkkiz atlet - cüdoçu Hülya Şenyurt, taekvondoçu Nur Tatar, güləşçi Yasemin Adar, karateçi Merve Çoban, ağır atlet Halil Mutlu, taekvondoçu Servet Tazegül və güləşçi Mehmet Akif Pirim İslam Həmrəyliyi İdman Federasiyasının (ISSF) bayrağını meydana gətirdilər.

ISSF-nin bayrağı qaldırıldıqdan sonra idmançıların və hakimlərin andı qəbul edildi. İdmançıların adından paralimpiyaçı kamandan oxatan Öznur Cüre, hakimlərin adından isə velosiped idmanı üzrə ədalət təmsilçisi Serkan Karademir and içdilər.

Açılış mərasimində Türkiyənin gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Taha və ISSF-nin prezidenti Abdülaziz bin Türki el Faysal el-Suud çıxış etdilər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan V İslam Həmrəyliyi Oyunlarını açıq elan etdi.

Sonra atəşfəşanlıq oldu.

Ardınca V İslam Həmrəyliyi Oyunlarının proqramında yer alan 24 idman növünün 9 min illik tarixi olan Çatalhöyük mirasından ilhamlanaraq hazırlanan qrafiklərin müşayiəti ilə ecazkar təqdimatı nümayiş etdirildi.

Əsas qayəsi Mövlanə Cəlaləddin Ruminin "Biz birləşdirməyə gəldik, ayırmağa gəlmədik" olan açılış mərasimi maraqlı kompozisiyaların təqdimatı ilə davam etdi. "Salam olsun!" kompozisiyası ilə Türkiyədən bütün islam dünyasına salam göndərildi. "Həmrəyliyin gücü" kompozisiyasının əsas qayəsi odur ki, islam dünyası bir-biri ilə qovuşur, birlik olur. Dünya müsəlmanları həmrəyliyin gücü ilə birləşir. Bu, islam dünyasının dəyərlər düşüncəsi ilə birləşməsinin və həmrəyliyinin göstəricisidir. "Elmin gücü" kompozisiyasında islam dünyasının qızıl dövrü tərənnüm edilir. Bu hissədə dünya qaranlıq dövrünü yaşadığı bir zamanda islam alimlərinin bütün insanlığa bu günümüzə qədər gəlib çatan bəşəri irs qoymaları təbliğ olunur. "Hikmətin gücü" kompozisiyasında böyük bir mədəniyyətin paytaxtı, elmin və hikmətin diyarı, könüllərin görüş yeri olan Konyanın miras qalan əsərləri təqdim olunur, bu qədim şəhərin tarixinə səyahət edilir. "Könüllər şəhəri: Konya" kompozisiyasında isə islam aləminin müdriklərinin uzun illər elm və hikmət axtarışlarından sonra Konyaya üz tutmaları və bu şəhərdə islam mədəniyyətinin ən nadir incilərini yaratdıqları tərənnüm olunur. "Eşqin gücü" kompozisiyasında bu gözəl diyarda kök salan hikmətli düşüncələrin öz bəhrəsini verdiyi, bu hikmətin və sevginin Konyanı "Könüllər şəhəri"nə çevirdiyi təbliğ edilir.

İdmanın birləşdirici gücü ilə həmrəyliyi inkişaf etdirməyi hədəfləyən V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi möhtəşəm atəşfəşanlıqla başa çatdı.

V İslam Həmrəyliyi Oyunları 2021-ci ildə keçirilməli olsa da, qlobal pandemiya səbəbindən yarış bir il təxirə salınıb. Avqustun 18-dək davam edəcək V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən 4 mindən çox atlet idmanın 24 növü üzrə 483 dəst medal uğrunda mübarizə aparır.

Oyunların məhz Konyada keçirilməsi təsadüfi deyil. Qədim tarixi olan Konya şəhəri həm də islam sivilizasiyasının mühüm mərkəzlərindən sayılır. Böyük təsəvvüf şairlərindən olan Cəlaləddin Ruminin türbəsi zahidlər üçün ziyarətgahdır. Ümumiyyətlə, Konya müxtəlif mədəniyyətlərin bir araya gəldiyi harmonik ruha sahibdir.

Xatırladaq ki, 2017-ci il mayın 12-22-də Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunları Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident və Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində bütün dünyaya nümayiş etdirdi ki, islam aləmi bir ola bilir və bu birlik gücümüzü daha da artırır. "Bakı-2017"də 54 ölkədən 3 mindən çox atlet idmanın 24 növü üzrə keçirilən yarışlarda 269 dəst medal uğrunda mübarizə aparıb. Bu oyunlara 425 atletlə qatılan Azərbaycan 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci oldu. Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn (21 medal) isə beşinci yerdə qərarlaşdı.

İslam Həmrəyliyi Oyunları ilk dəfə Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçirilib. İranın paytaxtı Tehranda keçirilməli olan ikinci İslamiada ləğv edilib. Üçüncü Oyunlar 2013-cü ildə İndoneziyanın Palembanq şəhərində təşkil olunub. VI İslam Həmrəyliyi Oyunları isə 2025-ci ildə Kamerunun paytaxtı Yaundedə keçiriləcək.

# Nazir Ceyhun Bayramov Ankarada keçirilən "Müdrik və mərhəmətli türk diplomatiyası" mövzusunda səfirlər konfransında çıxış edib






Türkiyə Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Ankarada "2023-Müdrik və mərhəmətli türk diplomatiyası" mövzusunda XIII səfirlər konfransı davam edir.

AZƏRTAC xəbər verir ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun sədrliyi ilə keçirilən növbəti hissədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun çıxışı dinlənilib.

Giriş nitqində Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" kəlamını xatırladan nazir Mövlud Çavuşoğlu deyib ki, müttəfiqlik münasibətlərimiz və qardaşlıq əlaqələrimiz xüsusi xarakter daşıyır. Dünyada bunun bənzəri yoxdur. Bundan əlavə, tarixi çətin dövrləri bir millət olan Azərbaycan və Türkiyə xalqlarını bir-birinə daha da yaxınlaşdırdı. Bir əsr əvvəl Azərbaycan türkləri milli mübarizəmizə dəstək üçün əlində, ovcunda nə var idisə qardaş köməyi deyərək Türkiyəyə göndərdi. Yəni qardaşlarımız qurtuluş savaşımızda bizləri tək qoymadılar. Qardaş köməyini 2020-ci ildə də gördük. Can Azərbaycanın Qarabağın işğaldan azad edilməsinə şahid olduq. Amma bu dəfə bütün Türkiyə xalqı Can Azərbaycanın yanında oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsi ilə əlaqələrimizin müttəfiqlik səviyyəsinə yüksəldiyini diqqətə çatdıran nazir Mövlud Çavuşoğlu deyib ki, müttəfiqlik, sadəcə, könüldə olmaz, bunu gerçəkləşdirən amillər var. Bu birliyə vəsilə olan ən mühüm səbəb Can Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsi, yəni Qarabağ zəfəri oldu. Qarabağ zəfəri ilə türk dünyasının özünə olan güvəni daha da artdı. Şuşa Bəyannaməsindən sonra İstanbulda keçirilən Zirvə görüşü zamanı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı oldu. Bundan sonra təşkilata rəhbərlik Azərbaycandan Türkiyəyə keçdi. Azərbaycanın da məlum pandemiyanın çətinliklərinə və Vətən müharibəsindən irəli gələn son dərəcə ağır şərtlərə baxmayaraq, qardaş ölkə təşkilatımıza uğurla sədrlik etdi. İkitərəfli əməkdaşlıqlarımızla yanaşı, bölgənin sülh və sabitliyi üçün də işləyirik, ideyalar irəli sürürük. Məlum olduğu kimi, üçtərəfli-dördtərəfli formatlarda mexanizmlərimiz var. Bunlar Türkiyə ilə Azərbaycanın mərkəzdə olduğu mexanizmlərdir.

Münaqişə və qarşıdurmaların heç kəs üçün faydalı olmadığını diqqətə çatdıran nazir Mövlud Çavuşoğlu deyib ki, Ukrayna böhranı bizim bölgəmizdə ölkələrimizin əhəmiyyətini daha da artırdı. "Biz hər zaman bölgəmizdə sülh uğrunda işlər aparmışıq. Amma bu gün dünyanın ehtiyacı olan xüsusilə enerji və qida böhranının yaşandığı bir dövrdə nəqliyyat və ticarət kimi mövzularda bütün dünyaya kömək göstərmək istəyirik. Bakıda Türkiyə, Azərbaycan, Qazaxıstan xarici işlər və nəqliyyat nazirlərinin toplantısını həyata keçirdik. Bunun ardından ötən həftə Özbəkistanda Türkiyə, Azərbaycan, Özbəkistan xarici işlər nazirləri, ticarət və nəqliyyat nazirləri toplandı. Bu təşəbbüsü də Azərbaycan tərəfi irəli sürmüşdü", - deyə o qeyd edib.

Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni vəziyyəti dəyərləndirən natiq bildirib ki, Ermənistan ilə ayrı-ayrılıqda həyata keçirilən normallaşma prosesini də paralel aparırıq və bir-birimizə hər mərhələdə məlumat veririk, fikir mübadiləsi aparırıq və yeri gəldiyində kritik nöqtələrdə necə addım atacağımızla bağlı birgə qərar veririk. Qeyd etdiyim kimi, Ermənistanı törətdiyi təxribatlardan əl çəkməsi ilə bağlı bir daha xəbərdar edirik. Bölgədə sabitlik və sülh üçün Türkiyə və Azərbaycan səmimidir. Bu normallaşma Ermənistanın da xeyrinədir. Sadəcə, xoş sözlərlə olmaz, konkret addımlar atmalı və anlaşmaları həyata keçirməliyik. Türkiyə hər zaman Can Azərbaycanın yanındadır. Azərbaycan da hər zaman Türkiyənin yanındadır. Azərbaycan xüsusilə Türkiyənin olmadığı platformalarda ölkəmizin haqlarını hər zaman ən azı bizim qədər müdafiə edir. Həqiqətən çətin dövrdən keçdik, sözün əsl mənasında, alovdan köynək geyindik. Bu dövrdə Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan tarix kitablarına salınacaq çox vacib uğurlara imza atdı.

Azərbaycan-Türkiyə müttəfiqlik əlaqələrini yüksək dəyərləndirən xarici işlər naziri Ceyhun Bayramov diqqətə çatdırıb ki, etnik, mədəni və tarixi tellərlə bağlı olan qardaşlığımız və dostluğumuz Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə qarşılıqlı maraqlarımıza xidmət edən gerçək addımlarla dəstəklənir. Xarici siyasət və diplomatiya sahəsində də əlaqələrimiz Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət!" və Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri - bizim kədərimiz, sevinci - bizim sevincimizdir" tarixi kəlamları çərçivəsində inkişaf edir. Bənzərsiz əlaqələrimiz artıq Türkiyə diplomatlarının Azərbaycanın maraqlarını, Azərbaycan diplomatlarının Türkiyənin maraqlarını müxtəlif beynəlxalq platformalarda öz dövlət maraqları kimi qoruması və təşviqi səviyyəsinə yüksəlmişdir. Bunun ən gözəl örnəkləri dövlət başçılarımız tərəfindən həyata keçirilir. 2014-cü ildə Praqada keçirilən Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının 5 illiyinə həsr olunmuş sammitdə çıxışı zamanı erməni iftira və hücumlarına münasibətdə Prezident İlham Əliyevin "Türkiyə burada yoxdursa, mən varam, biz varıq!" sözləri, Prezident Rəcəb Tayyib Ərdoğanın hər zaman, xüsusilə də 44 günlük Vətən savaşı zamanı vurğuladığı "Azərbaycan bizim qırmızı cizgimizdir!" ifadəsi diplomatiya tarixində bənzərsiz əlaqələrin təzahürüdür. Bu mənada ikitərəfli münasibətlərimizin inkişafına töhfə verən dəyərli məsləkdaşlarımıza təşəkkür etmək istəyirəm. Münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Bununla yanaşı, hələ gedəcək yolumuz, çatacağımız çox hədəflərimiz var ki, bu yolda da hər birimizə uğurlar diləyirəm.

Son 30 ildə beynəlxalq münasibətlər sistemində sürətli və ciddi dəyişikliklər baş verdiyini xatırladan Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri diqqətə çatdırıb ki, inkişaf və tənəzzül, inteqrasiya və özünütəcrid, bolluq və səfalət, əməkdaşlıq və rəqabət yan-yana irəliləyir. Bir tərəfdə təkamül, texnoloji və iqtisadi inkişaf, digər tərəfdə isə savaşlar, xəstəliklər və aclıq hökm sürür. Bir tərəfdən əməkdaşlığın sayı artarkən, digər tərəfdən de-inteqrasiya və özünütəcrid tendensiyaları davam edir. Bütün bu proseslər, əslində, beynəlxalq sistemdəki çalxalanma, məmnuniyyətsizlik və inamsızlıqları aydın formada göstərir. Eyni zamanda mövcud beynəlxalq sistemin rəngarəngliyini ortaya çıxarır, işbirliyinin nə qədər əhəmiyyətli olduğunu isbat edir. Beynəlxalq sistemin bütün üzvlərinə eyni qaydada təsir edən bu dəyişikliklər və bəlkə də "sistematik böhran" dövrünü bəsləyən, fikir ayrılığı və beynəlxalq ədalətsizliyi artıran bir çox amillər var ki, onların bəzilərinə toxunmaq istərdim. İlk olaraq təəssüflə qeyd edim ki, son illərdə beynəlxalq hüquq və normaların həyata keçirilməsində ciddi çatışmazlıqlar müşahidə edirik. Beynəlxalq hüquq və normalara, qəbul edilən qərarlara zidd olaraq əraziləri 30 il ərzində işğal altında saxlanılan bir dövlətin təmsilçisi kimi deyə bilərəm ki, hüququn tətbiqindəki zəifliklər, əslində, mövcud beynəlxalq sistemə etimadı sarsıdan birinci və ən əsas amildir. Bu gün, sadəcə, bəzi güclərin maraqlarına xidmət edən, "selektiv tətbiqlə" beynəlxalq hüququn icrası, ayrı-seçkilik ciddi narahatlıq doğurur. Bunun fəsadları, sadəcə, haqları pozulan xalqlar deyil, böyük güclər də daxil olmaqla, bütün sistem tərəfindən hiss edilir. Bu xüsusda, beynəlxalq hüquq və ədalətə inamı bərpa edərək beynəlxalq sistemdəki mövcud mexanizmlərin təsirinin artırılması, sistem və struktur dəyişikliyinin astanasında olduğumuz bu dövrdə önəmli addımdır.

Soyuq savaşdan sonra artan qloballaşma tendensiyası müsbət proseslərlə yanaşı, "təhdid" konsepsiyasını yenidən genişləndirib şaxələndirdiyini deyən nazir Ceyhun Bayramov bildirib ki, hazırda "təhdid" termini, sadəcə, dövlətlər arasındakı milli zəmində münaqişələrlə məhdudlaşmayaraq, beynəlxalq sərhədləri tanımayan transmilli və beynəlxalq təhdidləri də əhatə edir. Hər kəsə aydındır ki, artıq heç bir dövlət inkişaf edən yeni növ təhdidlərlə təkbaşına mübarizə aparmaq iqtidarında deyil. Təsadüfi deyil ki, beynəlxalq hüququn təməl prinsiplərini təşkil edən ərazi bütövlüyü, suverenlik və müstəqillik, bir-birilərinin daxili işlərinə qarışmamaq və digər prinsiplərə bütün ölkələr tərəfindən eyni məsuliyyətlə yanaşılsaydı, bu gün münaqişələrin və ədalətsizliklərin bir çoxunun qarşısı alınardı. Eyni zamanda qeyd olunmalıdır ki, iqlim dəyişikliyi və qlobal istiləşmə, pandemiya və ərzaq böhranı mövcud dünyamızın reallıqları arasındadır. Deyə bilərik ki, həm iqlim dəyişikliyi, həm də hərbi münaqişələr və onların iqtisadi nəticələri bəşəriyyəti ərzaq qıtlığı kimi qorxunc ssenarilərlə qarşı-qarşıya qoyur. Təsadüfi deyil ki, bu gün Ukrayna ətrafında yaşanan hadisələr ciddi narahatlıq doğurur və bir daha beynəlxalq sistemin bütün aktorlarına xatırladır ki, dünyanın istənilən yerində baş verənlər hamımıza təsir göstərir. Mövcud beynəlxalq sistemdə, xüsusilə də böhran dövründə artan sosial ədalətsizlik və insani dəyərlərin heçə sayılması bu gün hər birimizi narahat edən digər amillərdir. Bunun ən bariz nümunəsini bəşəriyyətimiz üçün ciddi sınaq olan COVID-19 pandemiya dövründə müşahidə etdik. Zəngin dövlətlərin bəzilərinin ehtiyaclarından daha artıq vaksin tədarükü ilə digərlərini dərmana sahib olmaqdan məhrum etməsi və tətbiq edilən "vaksin millətçiliyi" hər kəsdə beynəlxalq sistemdəki ədalətlə bağlı suallar yaratmışdır. Pandemiya, əslində, bizə bir daha həmrəylik və əməkdaşlığın əhəmiyyətini xatırlatdı. Sevinc və qürur hissi ilə vurğulamaq istərdim ki, Azərbaycan da qardaş Türkiyə kimi, pandemiya dövründə həm beynəlxalq platformalardakı təşəbbüsləri, həm də fərdi dəstəyi ilə ehtiyacı olan 80-dən çox ölkəyə maddi və humanitar yardım edib. Bu günədək bütün beynəlxalq platformalarda pandemiya səbəbindən ortaya çıxan fors-major durumda ədalətli, bərabər və humanitar yanaşmanın önəmli olduğunu bəyan etmişik. Bu səbəbdən də konfransımızın mövzusuna uyğun olaraq qeyd etmək istərdim ki, dəyişən və özündə ciddi çağırışları tələb edən mövcud beynəlxalq sistemdə "müdrik və mərhəmətli diplomatiya"nın əhəmiyyəti danılmazdır.

Beynəlxalq ədalətin təsis olunmasında bu gün qardaş Türkiyənin səylərinin bütün dünya üçün örnək olduğunu diqqətə çatdıran nazir Ceyhun Bayramov deyib ki, 500 illik bir mirasa sahib olan türk diplomatiyasının qazandığı uğurlar Türkiyənin beynəlxalq aktor kimi rolunu gündən-günə artırır. Dünyanın ən geniş 5-ci diplomatik təsisatına malik diplomatik təmsilçilikləriniz bu gün Türkiyənin gücünə güc qatır. Əminik ki, Türkiyənin olmadığı bir platformada Azərbaycanın tətbiq etdiyi kimi, bizim olmadığımız bir yerdə səsimizin, sözümüzün eşidilməsini qardaş Türkiyənin diplomatları həyata keçirirlər. Türkiyə bir çox digər sahələrdə olduğu kimi, həm də diplomatiyada yeniliklərin ortaya çıxması və tətbiqində qabaqcıl ölkələrdən birinə çevrilmişdir. Antalya Diplomatiya Forumundakı uğurlarınızı, rəqəmsal diplomatiyadakı addımlarınızı yaxından izləyir, təcrübədən məmnuniyyətlə istifadə edirik. Türkiyənin diplomatiyada qabaqcıl və mərkəzi ölkəyə çevrilməsini sevinc və fəxrlə qarşılayır, uğurlarınızı öz uğurumuz kimi qəbul edirik. Qazi Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh!" kəlamı, Prezident Rəcəb Tayyib Ərdoğanın "Dünya beşdən böyükdür!" ifadəsi Türkiyə diplomatiyasının kökündə hər zaman barış və ədalətin dayandığını bir daha ortaya qoymuşdur. Elə bu səbəbdən də təsadüfi deyil ki, qardaş ölkəmiz qlobal güclərin hesablaşdığı bir aktora çevrilmişdir. Bu gün dünyanın bir çox bölgəsindəki münaqişələrin həlli Türkiyəyə etibar edilir və rəsmi Ankara vasitəçi kimi dəvət olunur. Suriya, Liviya, Ukrayna böhranlarında Türkiyənin beynəlxalq hüquq və insani dəyərlərə əsaslanan vasitəçiliyi, prinsipiallığı türk diplomatiyasının dərinliyi, insan və ədaləti hər zaman ön planda saxlayan dinamikasını nümayiş etdirmişdir.

Torpaqlarımızın işğaldan azad edilməsi zamanı Türkiyənin ölkəmizə verdiyi siyasi və diplomatik dəstəyin, sadəcə, qardaşlıq münasibətlərinin təzahürü deyil, eyni zamanda Türkiyənin doğrunun, haqqın və ədalətin yanında dik durması kimi tarixdə öz yerini qazandığını ifadə edən nazir Ceyhun Bayramov bildirib ki, bu dövrdə bütün beynəlxalq təzyiq və təhdidlərə baxmayaraq, türk diplomatları azərbaycanlı məsləkdaşları ilə birlikdə bütün platformalarda çiyin-çiyinə çalışaraq, haqq səsimizin dünyada eşidilməsi üçün ciddi mübarizə apardılar. "Başda Prezident Rəcəb Tayyib Ərdoğan və xarici işlər naziri Mövlud Çavuşoğlu olmaqla, Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə beynəlxalq ədalətin bərqərar olması yolundakı fəaliyyətlərinə dəstək verən bütün türk diplomatlarına təşəkkürümü bildirir, bundan sonra da məhsuldar fəaliyyətlərimizi birlikdə yaşamağı arzu edirəm. Eyni zamanda bu gün burada olmağımdan istifadə edərək, ASALA və digər erməni terror təşkilatlarının törətdikləri terror aktları nəticəsində şəhadətə yüksələn türk diplomatları və ailə üzvlərini də ehtiramla anmaq istəyirəm. Türk diplomatlarımıza qarşı törədilən bu terror aktları erməni terrorizminin hələ XX əsrin 70-80-ci illərində türk etnik kimliyinə olan nifrətini isbat edərək, əslində, sonrakı onilliklərdə Azərbaycanın başına gələn faciələrin xəbərçisi olmuşdur. Düşünürəm ki, nifrət üzərində qurulan bir ideologiya ən böyük zərəri özünə vurur. Bundan imtina etmək həm regional inteqrasiyaya, həm də erməni xalqının rifahına xidmət edə bilər. Biz, Azərbaycan və Türkiyə olaraq iradəmizi ortaya qoymuşuq və qarşı tərəfdən də adekvat addımlar gözləyirik", - deyə nazir fikirlərini yekunlaşdırıb.

## *Hikmət HACIYEV:* "İşğaldan sonra Laçında ermənilərin qanunsuz məskunlaşdırılması aparılıb"


Hikmet Hajiyev
@HikmetHajiyev

The Times reportage by Robert Seely in May 1992 on illegal occupation, burning and plundering of Lachin/Zabukh village by Armenia. After occupation illegal settlement conducted by transferring armenians from ME.

Thanks to @MaidenTower for sharing it.

Manuscripts don't burn!

**Armenian looters burn down village**

Robert Seely reports on the cruel revenge taken by the conquerors of Lachin after a week of bitter fighting

Laçının işğalı və talan edilməsindən sonra Yaxın Şərqdən olan ermənilər bu ərazilərdə qanunsuz məskunlaşdırılıb.

Bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün tviter hesabındakı paylaşımında qeyd edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Robert Silinin 1992-ci ilin mayında Laçının Zabux kəndinin Ermənistan tərəfindən qanunsuz işğalı, yandırılması və talan edilməsi haqqında "Times" qəzetində reportajı. İşğaldan sonra ermənilərin Yaxın Şərqdən köçürülməsi yolu ilə qanunsuz məskunlaşdırılması aparılıb. Əlyazmalar yanmır".

## Xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin aparıcı media orqanlarına müsahibə verib

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyəyə işgüzar səfəri çərçivəsində avqustun 9-da bu ölkənin aparıcı media orqanlarına müsahibə verib.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov "TRT World", habelə "Hürriyyət", Anadolu Agentliyi, "Haber Global" və "Daily Sabah"ın müxbirlərinin 44 günlük Vətən müharibəsindən sonrakı mərhələdə bölgədə sülh və əmin-amanlığın təmin olunması istiqamətində səylər, Avropa İttifaqının vasitəçiliyi ilə danışıqlar, Ermənistanın Azərbaycana qarşı son təxribatları, üçtərəfli bəyanatları pozması və öhdəliklərini yerinə yetirməməsi, Türkiyə-Ermənistan əlaqələrinin normallaşması prosesi, Zəngəzur dəhlizi üzrə işlər, Şuşa Bəyannaməsindən irəli gələn tədbirlər, habelə Londondakı səfirliyimizə radikal dini qruplaşmaların hücumu barədə sualları cavablandırıb.

Nazir media nümayəndələrinə Azərbaycanla Türkiyə arasında münasibətlərin yüksək səviyyəsi və çoxsaylı əməkdaşlıq istiqamətləri, bölgədə sülhün, təhlükəsizliyin və inkişafın təmin olunmasına dair Azərbaycanın baxışları və addımları, ölkəmiz tərəfindən aparılan bərpa və yenidənqurma işləri, nəqliyyat-kommunikasiya xətlərinin bərpası, habelə mina təhlükəsi barədə məlumat verib, digər qarşılıqlı maraq doğuran sahələrdə müzakirə aparılıb.

## XİN Ceyhun Bayramovun XIII səfirlər konfransındakı çıxışı ilə bağlı məlumat yayıb

Avqustun 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun dəvəti əsasında Ankarada keçirilən "2023-cü il ərəfəsində və ondan sonrakı dövrdə müdrik və humanist türk diplomatiyası" mövzusunda XIII səfirlər konfransında çıxış edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə çıxışına başlayan nazir Ceyhun Bayramov hazırda ən yüksək mərhələdə olan Azərbaycan-Türkiyə münasibətlərinin nümunə təşkil etdiyini vurğulayıb. Münasibətlərin strateji səviyyədən tarixi Şuşa Bəyannaməsi ilə müttəfiqliyə yüksəldiyini diqqətə çatdırıb. Azərbaycan xarici işlər nazirinin dünyanın 144 ölkəsində təmsil olunan diplomatik missiya rəhbərlərinin, Türkiyə səfirlərinin konfransında çıxışının əlaqələrin ən yüksək səviyyəsinin göstəricisi olduğunu qeyd edib.

Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyində qarşılıqlı maraqlarımıza xidmət edən birgə səylərimizin, ölkələrimizin müxtəlif beynəlxalq platformalarda bir-birinə göstərdiyi dəstəyin əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov Azərbaycan ərazilərinin 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən işğalı zamanı həyata keçirilmiş vandallıqlar barədə məlumat verib. 44 günlük Vətən müharibəsindən sonra postmünaqişə mərhələsində bölgədə sülhün bərqərar olması, nəqliyyat-kommunikasiya xətlərinin açılması, Zəngəzur dəhlizinin bərpa olunması istiqamətində Azərbaycan tərəfindən atılan addımlardan, bərpa və quruculuq işlərindən bəhs edib. Ermənistanın üçtərəfli bəyanatlara zidd fəaliyyətləri və bölgədə son təxribatlar barədə iştirakçıları məlumatlandırıb.

Xarici işlər naziri Ceyhun Bayramov tərəfindən bununla yanaşı, ASALA və digər erməni terror təşkilatları tərəfindən şəhid edilən türk diplomatlarının və ailə üzvlərinin əziz xatirəsi yad edilib və bölgəmizdə nifrət dolu ideologiyalara yer olmadığı bildirilib.

Türkiyənin hər zaman Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyini müdafiə etdiyini qeyd edib. Xüsusilə də Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə qardaş ölkənin bütün səviyyələrdə Azərbaycana verdiyi siyasi dəstəyini, Türkiyənin daim haqqın yanında olmasını bildirib. Qardaş Türkiyə ilə atdığımız qətiyyətli və məqsədyönlü addımların Cənubi Qafqaz və daha geniş bölgədə sülh, təhlükəsizlik, ədalət və rifahın daha da möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayıb.

Müstəqil, güvənilən, balanslı və çoxşaxəli diplomatiya həyata keçirən Azərbaycanın ikitərəfli və çoxtərəfli platformalarda həyata keçirdiyi işlər barədə səfirlərə müfəssəl məlumat verib. 2019-cu ildən etibarən Qoşulmama Hərəkatında sədrliyimiz, Türk Dövlətləri Təşkilatında və digər beynəlxalq platformalarda fəal üzvlüyümüz çərçivəsində təşəbbüslərimizin sülh və təhlükəsizliyə müsbət töhfə verdiyi diqqətə çatdırılıb.

Beynəlxalq münasibətlər sistemində baş verən çağırışlar və transmilli təhdidlərdən, beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməsində yaşanan problemlərdən bəhs edən nazir, belə bir mühitdə əməkdaşlığın daha da gücləndirilməsinin, yeni əməkdaşlıq mexanizmlərinin və platformalarının tətbiq edilməsinin vacib olduğunu qeyd edib.

Böyük siyasi və iqtisadi potensiala malik olan Azərbaycan və Türkiyənin müttəfiqliyinin regionda sülhün və təhlükəsizliyin, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəldiyini diqqətə çatdırıb. Bütün maneələrə baxmayaraq, 1990-cı illərdən dövlətlərimizin həyata keçirdiyi birgə irimiqyaslı regional layihələrdən bəhs edən nazir, hazırda energetika, nəqliyyat-logistika sahələrində reallaşan işlərin və gələcək planların ikitərəfli səviyyədə, habelə geniş regional müstəvidə ticarət-iqtisadi əlaqələrin daha da genişlənməsinə böyük töhfə verdiyini bildirib.

Ceyhun Bayramov çıxışının sonunda qardaş ölkənin diplomatik təmsilçilərinə şərəfli və çətin fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra nazir Ceyhun Bayramov iştirakçıları maraqlandıran sualları cavablandırıb.

# Azərbaycan və Moldova arasında sosial müdafiə sahəsində əməkdaşlıq genişlənir

Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə Moldovanın əmək və sosial müdafiə naziri Marçel Spatar arasında videokonfrans formatında görüş olub.



ƏƏSMN-in İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir S.Babayev ötən dövrdə ölkəmizdə aparılan sosial islahatlar və onların müsbət nəticələri, DOST konsepsiyası, şəhid ailələri üzvləri, həmçinin müharibə iştirakçılarının müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri, postmüharibə dövründə sosial dəstək tədbirləri, sosial sahədə elektron texnologiyaların tətbiqi, əhaliyə göstərilən proaktiv xidmətlər barədə ətraflı məlumat verib.

Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri hər iki nazirlik arasında bir çox sahələrdə, o cümlədən əmək və sosial təminat sahəsində əməkdaşlığın genişləndirilməsi, fəal təcrübə mübadiləsi üçün böyük potensialın mövcudluğundan bəhs edib. Nazirliklər arasında əməkdaşlığın hüquqi bazasının gücləndirilməsinin vacibliyini qeyd edən nazir S.Babayev "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Moldova Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" layihəsi üzrə hazırlıq işlərinin aparıldığını nəzərə çatdırıb.

DOST layihəsinin ərsəyə gətirilməsi və inkişafı, o cümlədən DOST mərkəzləri şəbəkəsinin genişləndirilməsi, vətəndaşlara xidmət səviyyəsinin daha da yüksəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər barədə həmkarına ətraflı məlumat verib. DOST təcrübəsinin bir çox xarici ölkələrin müvafiq qurumları tərəfindən öyrənildiyini bildirən nazir Moldova ilə mütərəqqi təcrübəni bölüşməyə hazır olduğunu söyləyib.

Nazir S.Babayev mövcud ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin ölkə başçılarının birgə səyləri ilə xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğulayıb.

M.Spatar iki ölkə arasında sosial təminat sahəsində formalaşan uğurlu əməkdaşlıqdan söhbət açıb, əmək və sosial xidmətlər ilə bağlı Moldovanın təcrübəsi, əldə olunan uğurlar barədə məlumat verib.

Azərbaycanda sosial sahədə həyata keçirilən islahatları yüksək qiymətləndirən M.Spatar hər iki nazirliyin bu prosesdə fəal təcrübə mübadilələrinin önəmini qeyd edib. Ölkəsinin əmək və sosial müdafiə sahəsində ciddi islahatlara hazırlaşdığını söyləyən nazir Spatar Azərbaycanın DOST təcrübəsinin yaxından öyrənilməsi, eyni zamanda tətbiqinə maraqlı olduqlarını bildirib.

Görüşdə Azərbaycan və Moldova arasında sosial müdafiə sahəsində ikitərəfli əlaqələrin inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

# "Daily Sabah": "Zəngəzur dəhlizi Avropa ilə Asiyanı birləşdirən yeni nəqliyyat yoludur"

"Zəngəzur dəhlizinin açılması bir çox maliyyə fürsətləri yaradacaq və Cənubi Qafqazda davamlı sülhə xidmət edəcək".




Bu fikir Türkiyənin "Daily Sabah" portalında yerləşdirilən "Zəngəzur dəhlizi: Avropa ilə Asiyanı birləşdirən yeni nəqliyyat yolu" sərlövhəli məqalədə yer alıb.

Məqalənin müəllifi - YAP Gənclər Birliyinin üzvü, siyasi şərhçi Anastasiya Lavrina qeyd edib ki, Ermənistanla Azərbaycan arasında baş verən 44 günlük müharibədən sonra Cənubi Qafqaz regionunda geosiyasi vəziyyət tamamilə dəyişib. Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizi Asiyanın Avropa və Yaxın Şərqlə əlaqəsini qısaldacaq.

Zəngəzur dəhlizi Sakit və Atlantik okeanları arasında ən qısa yol hesab olunur, həmçinin Şimaldan Cənuba, Şərqdən Qərbə gedən yolların kəsişməsində yerləşir. Zəngəzur dəhlizi Avropanı Asiya ilə birləşdirən nəqliyyat əlaqələrində önəmli rol oynayacaq.

Müəllif diqqətə çatdırıb ki, Azərbaycan və Ermənistan liderlərinin Brüssel görüşündə vaxtilə Zəngəzurdan keçən qatar yollarının yenidən istifadəyə verilməsi müzakirə olunub. Avropa İttifaqı regionda nəqliyyat dəhlizlərinin açılmasını qətiyyətlə dəstəkləyir. ABŞ və Türkiyə də bu layihənin tərəfdarları arasındadır.

Bu layihə bir çox iqtisadi imkanlar yaratmaqla yanaşı, Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün formalaşmasına töhfə vermiş olacaq.

Sonda vurğulanıb ki, Zəngəzur dəhlizinin işə salınması həm də Orta Dəhlizin inkişafını təmin edəcək. Bu isə Qara dənizdən Qafqaz və Mərkəzi Asiyadan keçməklə Hindistan, Çin, Şərqi və Cənubi Asiyanın digər ölkələrinə qədər bütün regionun iqtisadiyyatına müsbət təsir göstərəcək.

# Diaspor Gənclərinin III Yay Düşərgəsinin iştirakçıları Diasporla İş üzrə Dövlət Komitəsində olublar





Avqustun 9-da Diasporla İş üzrə Dövlət Komitəsində Şuşada keçirilən Diaspor Gənclərinin III Yay Düşərgəsinin iştirakçıları ilə görüş olub.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən komitə sədri Fuad Muradov "Şuşa-270" şüarı altında baş tutan III Yay Düşərgəsinin uğurla başa çatması münasibətilə iştirakçıları təbrik edib. Eyni zamanda düşərgənin tərəfdaşlarına, müvafiq dövlət qurumlarına, iş adamlarına və incəsənət xadimlərinə, eləcə də tədbiri geniş şəkildə işıqlandıran media nümayəndələrinə təşəkkür edib. O, Azərbaycan diasporunun sıralarında gəncləşmə prosesinin getdiyini, Yay düşərgələrinin və komitənin həyata keçirdiyi digər layihələrin bu prosesin keyfiyyətinə müsbət təsir etdiyini söyləyib.

Azərbaycan dövlətinin hər zaman xaricdə yaşayan azərbaycanlıların yanında olduğunu vurğulayan F.Muradov qeyd edib ki, 2022-ci il aprelin 22-23-də Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xaricdə yaşayan azərbaycanlıları hər zaman tarixi Vətənlə əlaqələrini kəsməməyə, vaxtaşırı Azərbaycana səfər etməyə, ana dilini unutmamağa, Azərbaycan tarixini və mədəniyyətini öyrənməyə, Azərbaycan həqiqətlərini dost xalqların diasporları ilə birlikdə təbliğ etməyə çağırıb. Bu mənada Diaspor Gənclərinin Yay düşərgələri Azərbaycan Prezidentinin tövsiyələrinin gerçəkləşdirilməsi kimi də qiymətləndirilə bilər.

Görüşdə gənclərin şəbəkələşməsi baxımından layihənin əhəmiyyəti, düşərgədə keçirilən təlimlər, panel iclasları, görüşlər və digər proqramlar barədə fikir mübadiləsi aparılıb.

Bu möhtəşəm layihənin azad Şuşada keçirilməsinə görə minnətdarlıqlarını bildirən düşərgə iştirakçıları öz təəssüratlarını bölüşüb, onları maraqlandıran sualları və gələcək düşərgələr üçün təkliflərini səsləndiriblər. Eyni zamanda Azərbaycan evlərinin və "Qarabağ" həftəsonu Azərbaycan məktəblərinin fəaliyyətini yüksək qiymətləndirib, bu layihələrə görə Azərbaycan dövlətinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Diaspor Gənclərinin III Yay Düşərgəsi Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə 2022-ci il avqustun 2-8-də gerçəkləşdirilib. Düşərgənin tərəfdaşları Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Dövlət Turizm Agentliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsidir.

Bu möhtəşəm layihədə 50 ölkəni təmsil edən 115 nəfər iştirak edib. Onların arasında həm dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, həm də Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri olub. Layihənin xalqımızın Qarabağda parlaq Qələbəsindən və Dünya Azərbaycanlılarının V (Zəfər) Qurultayından sonraya təsadüf etməsi xüsusi önəm daşıyır.

Xatırladaq ki, Diaspor Gənclərinin I Yay Düşərgəsi "Cümhuriyyətin 100 illiyi" şüarı altında Şəkidə, "Nəsimi-650" II Yay Düşərgəsi isə 2019-cu ildə Şamaxıda keçirilib.

# Yalan və qərəzli informasiyalar cəmiyyətdə çaşqınlıq yaradır

## Baş Prokurorluğun bunu yayanlara qarşı həyata keçirdiyi tədbirlər davam etdirilməlidir

Son dövrlərdə, doğru məlumata ehtiyacın yarandığı zamanda müxtəlif şəxslər tərəfindən həm sosial şəbəkələrdə, həm də bəzi elektron KİV-də qərəzli, həqiqətdən uzaq, şişirdilmiş informasiyalara rast gəlirik.

Belə məlumatlar xəbər gözləyənləri rahatsız etməklə yanaşı, cəmiyyətdə yanlış fikir formalaşdıra bilir. Xüsusən, çaşqınlıq yaratmaq üçün qoyulan xəbər başlıqları bəzi şəxsləri təşvişə salır.

### Yoxlanılmamış məlumatlar qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur

Yaranmış vəziyyətdən sui-istifadə edib ajiotaj yaradan xəbərləri yayımlayanlar, bununla "İP" toplayan, daha çox "like" yığanlar və diqqəti cəlb etmək istəyənlər az deyil. Bəzən rəsmi olmayan məlumatlar belə sürətlə yayılaraq insanlar arasında təşviş yaradır. Elə şəxslər var ki, "ilk xəbəri mən verdim" imicini formalaşdırmaq üçün kimdənsə eşitdiyi əsassız məlumatı ölçüb-biçmədən, nəticələrini düşünmədən status xətrinə yazır.

Belə xəbərlərin yayılmasının qarşısını almaq üçün Baş Prokurorluq tərəfindən tədbirlər həyata keçirilir. Bununla bağlı Baş Prokurorluq media subyektlərinə və sosial şəbəkə istifadəçilərinə müraciət də edib. Qeyd olunub ki, aparılan monitorinqlərlə mediada informasiyanın dərc olunması zamanı bəzi hallarda "Media haqqında" Azərbaycan Respublikasının Qanununun 14.1.11-ci maddəsinin tələbləri, yəni faktların və hadisələrin qərəzsiz və obyektiv təqdim olunması, birtərəfliliyə yol verilməməsi haqqında tələblərə riayət olunmaması müəyyən edilib. İctimai-siyasi sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının pozulmasına yönələn halların qarşısının alınması üçün aidiyyəti şəxslər Baş Prokurorluğa dəvət olunmaqla barələrində prokuror təsir tədbirləri görülüb. Həmin şəxslərə "Prokurorluq haqqında" qanunun 22-ci maddəsinə əsasən, gələcəkdə bu kimi neqativ hallara yol verməmələri ilə bağlı xəbərdarlıq edilib.

Müraciətdə bir daha bildirilib ki, dövlət qurumları ilə hər hansı dəqiqləşdirmə aparmadan yoxlanılmamış məlumatların yayılması yolverilməz olmaqla qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

### Hüquqi məsuliyyətlə bağlı maarifləndirmənin artırılmasına ehtiyac var

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Tahir Kərimli qəzetimizə açıqlamasında bildirib ki, son dövrlər sosial şəbəkələr bəzi müsbət tərəfləri ilə yanaşı, həm də bir bəlaya çevrilib.

Deputatın sözlərinə görə, sosial şəbəkələrdə nəzarəti mümkün olmayan tendensiyalar gedir. Bu, dövlətlərin təhlükəsizliyi, mənəviyyatla və digər məsələlərlə bağlı olur. Dəfələrlə məlumat verilib ki, hərbi sirlər, hərbi hissələrin yerdəyişməsi ilə bağlı internet saytlarında xəbərlər verilməsin. Ümumiyyətlə, sosial şəbəkələrdə bəzən şişirdilmiş məlumatlara çox rast gəlinir. Baş Prokurorluq ardıcıl olaraq belə halları pisləyir, xəbərdarlıq edir, vətəndaşlara məsuliyyətli davranmalarını bildirir. Ancaq görünür ki, bu, istənilən nəticəni vermir.

Tahir Kərimli hesab edir ki, bu halların qarşısının alınması üçün təkcə həmin şəxslərin cəzalandırılması, onlara xəbərdarlıq edilməsi ilə kifayətlənməməli, eyni zamanda kütləvi informasiya vasitələrində maarifləndirici materialları da artırmaq lazımdır: "Xüsusən nüfuzlu nəşrlərdə, onların rəsmi saytlarında bir bölmədə hansı məsələlərin işıqlandırılmasının qanunla qadağan olunduğu bildirilməlidir. Vətəndaşlara xəbərdarlıq edilməlidir ki, onlar bunu bilmədiyini, xəbəri olmadığını deməsinlər".

Deputat qeyd edir ki, Baş Prokurorluq, Dövlət Təhlükəsizlik Xidməti dəfələrlə bu barədə xəbərdarlıq edib. Bu istiqamətdə işləri davam etdirmək lazımdır. Hüquqi məsuliyyətlə bağlı maarifləndirmənin artırılmasına ehtiyac var.

### Sosial şəbəkədə mütləq şəkildə ayıqlıq və sayıqlıq göstərmək lazımdır

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev deyir ki, keçirilən hər bir hərbi əməliyyat, qoşunların dislokasiyası məxfi xarakter daşıyır. Həm düşmən xüsusi xidmət orqanları, həm də düşmənlərin havadarları olan bir sıra dövlətlərin xüsusi xidmət orqanları açıq mənbələrdən istifadə edirlər. Bu proseslərdə düşmənə informasiya ötürüldüyünü də unutmaq olmaz.

Deputatın fikrincə, buna görə də sosial şəbəkədə mütləq şəkildə ayıqlıq və sayıqlıq göstərmək lazımdır: "Təəssüf ki, bəzən kiminsə öz bilgilərini vətəndaşlara çatdırmaq üçün atdığı addımlar acınacaqlı nəticələr verir. Bundan başqa, hərbçilərin özlərinə də konkret göstəriş verilib ki, hər hansı əməliyyatın çəkilişini yaymasınlar".

Arzu Nağıyev deyir ki, Müdafiə Nazirliyi bir neçə hərbçi haqqında, onların hərbidən uzaqlaşdırılması, müvafiq maddə ilə müqavilələrinin pozulması barədə məlumat yaymaqdadır. Baş Prokurorluq da bu istiqamətdə ciddi addımlar atır, profilaktik tədbirlər görür, əməliyyat-istintaq hərəkətləri həyata keçirir.

Deputatın sözlərinə görə, sosial şəbəkələrdə Azərbaycanı sevməyənlər, həmçinin ermənilərin tərəfdarı olanlar da var. Onlar Azərbaycanın atdığı hər hansı müsbət addımı həmişə özlərinin maraqlarına uyğun dəyişdirməyə çalışırlar. Hətta bir sıra ictimai xadimlərin çıxışlarını, vətənpərvərliklə bağlı müsbət addımlarını kənara qoyaraq, hansısa məsələni şişirdərək onları nüfuzdan salmağa çalışırlar.

Deputat düşünür ki, bu halların hamısına nəzarət var: "Unutmaq lazım deyil ki, müharibənin hərbi fazası sona çatsa da, erməni tör-töküntüləri, quldurları hələ də ərazimizdədir. Həm informasiya müharibəsi, həm keçirilən əməliyyatlar birmənalı olaraq bizim qələbəmiz üçündür. Buna görə də ayıq-sayıq olmaq lazımdır".

Onun sözlərinə görə, sosial şəbəkə istifadəçiləri də hər zaman nəyi, niyə, nəyin naminə etdiklərini dərk etməlidirlər: "Çünki biz birlikdə güclüyük! Həm Ali Baş Komandana, həm də Müzəffər Azərbaycan Ordusuna, əməliyyatı keçirən hər bir hərbçiyə dəstək olmalıyıq. Atacağımız bir səhv addımın ağır nəticəyə gətirib çıxara biləcəyini unutmamalıyıq. Buna görə də Azərbaycan xalqı, ziyalılar, sosial şəbəkə istifadəçiləri, KİV nümayəndələri bir olub qələbə naminə öz addımlarını atmalıdırlar".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Prezident İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin 2022-ci ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Avqustun 9-da Baş prokuror Kamran Əliyev Oğuz Rayon Prokurorluğunun inzibati binasında Oğuz, Şəki və Qəbələ rayonlarından, həmçinin digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 19 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror Şəki və Qəbələ rayon prokurorluqlarına gedib, əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabeli prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

* * *

Avqustun 9-da Dövlət Gömrük Komitəsi (DGK) sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov Qazax şəhərindəki Gənclər Evində Qazax, Ağstafa və Tovuz rayonlarından olan vətəndaşları qəbul edib.

Komitənin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, DGK sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən Şahin Bağırov qəbuldan öncə Qazax şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Qazax, Ağstafa və Tovuz rayonları sakinlərinin müraciətləri dinlənilib.

Vətəndaşların müraciətləri əsasən işə qəbul, idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı Şahin Bağırov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlarını verib.

# DOST Agentliyinin yaradılmasından 4 il ötür

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) 4 yaşı tamam olur. DOST Agentliyi Prezident İlham Əliyevin 2018-ci il avqustun 9-da 229 nömrəli Fərmanı ilə yaradılıb.



Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan DOST mərkəzlərində 154 dövlət sosial xidməti bir pəncərədən, şəffaf və operativ, vətəndaş rahatlığı və sadə prosedurlar əsasında vətəndaşlara təqdim olunur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, indiyədək DOST mərkəzlərində 1 milyondan çox vətəndaşa xidmət göstərilib və onların həmin xidmətlərdən məmnunluq səviyyəsi 98,1 faiz olub.

DOST mərkəzləri şəbəkəsi ilbəil genişlənir. İndiyədək Bakı şəhərini və Abşeron rayonunu əhatə edən 5 DOST mərkəzi açılıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun işğaldan azad etdiyi ərazilərdə də DOST konsepsiyasının tətbiqinə başlanılıb. Artıq Zəngilanın Ağalı kəndində ilk "Smart DOST" məntəqəsi istifadəyə verilib. Paralel olaraq Bakı şəhərində sonuncu DOST mərkəzinin, həmçinin Şuşa, Sumqayıt, Gəncə, Bərdə, Quba və digər regionlarda mərkəzlərin yekun layihələndirmə-tikinti işləri aparılır.

"Çağrı Mərkəzi" tərəfindən isə ötən dövr ərzində 2,7 milyon vətəndaş müraciəti cavablandırılıb.

Fəaliyyəti dövründə DOST Agentliyi ictimai iştirakçılığın təşkili, könüllü hərəkatına dəstək, gənclər siyasətinə dəstək, dövlət-vətəndaş münasibətlərinin inkişafı, yüksəkkeyfiyyətli xidmət, gənclərin əmək bazarına hazırlığı və fəal yaşlanmanın təmin olunması məqsədilə "Könüllü DOST" proqramını icra edib. Agentlikdə könüllülük fəaliyyəti 5 istiqamətdə - "Gənc DOST", "Gümüşü DOST", "İnklüziv DOST", "Korporativ DOST" və "Distant DOST" altproqramları təşkil edilib.

DOST Agentliyinin fəaliyyəti beynəlxalq arenada da yüksək qiymətləndirilir. Bunun nəticəsidir ki, agentlik bu il 5 beynəlxalq mükafatla, o cümlədən Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətlər Mükafatı ilə təltif edilib. DOST mərkəzləri "Avropa İttifaqı Biznes Mühiti Hesabatı-2021"də təkmil islahat kimi dəyərləndirilib. Həmçinin dünyada məşhur olan LRQA sertifikatlaşdırma (Böyük Britaniya) təşkilatı tərəfindən 4 istiqamət üzrə ISO sertifikatlarına layiq görülüb.

# V İslam Həmrəyliyi Oyunları




## Komandamız növbəti medalını üçtəkanla tullanma yarışında qazanıb

Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunları davam edir.





AZƏRTAC xəbər verir ki, idmançılarımız komandamızın aktivinə daha bir medal yazdırıblar. Belə ki, atletikanın üçtəkanla tullanma proqramında Azərbaycan idmançısı Aleksis Kopello gümüş medal qazanıb.

Bununla da komandamızın qazandığı medalların sayı 3-ə çatıb. Bundan əvvəl atletimiz Anna Skidan çəkicatma yarışlarında qızıl medal qazanıb, taekvondoçumuz Qaşım Maqomedov (58 kq) isə bürünc medala sahib olub.

Qeyd edək ki, oyunlarda 56 ölkədən 4 mindən artıq idmançı medallar uğrunda mübarizə aparır. Oyunlar vaxtı 483 dəst medal sahibini tapacaq.

## Velosipedçilərimizin hamısı finişə çatıblar

Biz bu yarışlara idmanın bu növünün inkişafı kimi baxırıq. Velosiped yarışlarında göstəricilər də fikrimizcə çox yüksəkdir. Starta çıxan idmançıların hamısı finişə çata bilmir. Bizim velosipedçilərimizin hamısı isə finişə çatıblar.

AZƏRTAC xəbər verir ki, bu sözləri V İslam Həmrəyliyi Oyunları zamanı jurnalistlərə müsahibəsində Azərbaycan Velosiped Federasiyasının prezidenti Mədət Quliyev deyib.

Federasiya prezidenti əsas hədəflərinin Olimpiya, dünya və Avropa çempionluğu olduğunu deyib: "Bunun yolu var və biz də bu yolda gedirik".

Qeyd edək ki, Azərbaycan velosipedçiləri İslamiadada hələlik medal qazanmayıblar.

## Kişi stolüstü tennisçilərimiz komanda yarışlarının növbəti mərhələsinə vəsiqə qazanıblar

V İslam Həmrəyliyi Oyunlarında stolüstü tennis üzrə komanda yarışları davam edir.

AZƏRTAC xəbər verir ki, kişi stolüstü tennisçilərimiz komanda yarışlarının ilk oyununda Mavritaniya seçməsi ilə görüşməli idilər. Rəqib oyuna çıxmadığından yığmamızın aktivinə qələbə yazılıb.

Seçmə komanda sabah Türkiyə və Uqanda milliləri ilə üz-üzə gələcək.

## Azərbaycanın həndbolçuları Əfqanıstan millisini məğlub edib



Qadın həndbolçulardan ibarət Azərbaycan milli komandası V İslam Həmrəyliyi Oyunlarında növbəti qələbəsini qazanıb.

AZƏRTAC xəbər verir ki, yığma B qrupundakı ikinci matçında Əfqanıstan yığması ilə üz-üzə gəlib. Konyada təşkil olunmuş görüşdə komandamız rəqibini 43:9 hesabı ilə məğlub edib.

Qeyd edək ki, qadın həndbolçulardan ibarət millimiz ilk oyunda Kamerun seçməsi ilə qarşılaşmalı idi. Rəqib meydana çıxmadığından millimizin aktivinə qələbə yazılmışdı.

Yığmamız qrup mərhələsinin avqustun 11-də olacaq son turunda İran kollektivi ilə görüşəcək.

Həndbol yarışlarında yarımfinal görüşləri avqustun 13-də, mükafatlar uğrunda oyunlar avqustun 14-də olacaq.




## Millimiz Banqladeş idmançılarına qalib gəlib

Azərbaycanın qadın stolüstü tennis komandası Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında mübarizəyə uğurla başlayıb.

İlk oyunda Banqladeş seçməsi ilə qarşılaşan milli 3:0 hesabı ilə qələbə qazanıb.

Ləman Əbdülhəmidova ilə Mərziyyə Nurmətova şəxsi görüşlərdə, Nəzakət Qarayeva-Mərziyyə Nurmətova tandemi isə qoşa yarışda rəqiblərini üstələyib. Dünən günün ikinci yarısında Azərbaycan komandası Özbəkistan millisi ilə görüşüb və 0:3 hesabı ilə məğlub olub.

Bu gün komandamız İran millisi ilə üz-üzə gələcək.

## Voleybol yığmamız Sudanı məğlub edib

Kişi voleybolçulardan ibarət Azərbaycan milli komandası V İslam Həmrəyliyi Oyunlarında ilk görüşünü keçirib. A qrupundakı ilk qarşılaşmada rəqib Sudan yığması olub.



Görüş Azərbaycan millisinin qələbəsi ilə yekunlaşıb - 3:0. Pərviz Səmədovun baş məşqçi olduğu kollektiv ilk setdə 25:13, ikincidə 25:20, üçüncüdə isə 25:22 hesabı ilə üstün olub.

"Sudan millisi ilə oyun çox da çətin olmadı. Növbəti rəqiblərimiz daha güclüdür. Hazırlığımızı davam etdiririk və ümid edirəm ki, həmin görüşlərdə də qələbə qazanacağıq". Bu sözləri V İslam Həmrəyliyi Oyunları çərçivəsində Sudan millisini məğlub edən kişi voleybolçulardan ibarət Azərbaycan yığmasının üzvü Aqil Ağazadə görüşdən sonra jurnalistlərə müsahibəsində deyib.

Voleybolçu bildirib ki, ilk setdə əsas heyətlə çıxaraq rəqibi 25:13 hesabı ilə üstələyiblər. Növbəti setlərdə isə baş məşqçi gənclərə geniş yer verib. "İlk oyunumuz olduğu üçün meydançanı tanımaq və hiss etmək vacib idi. Əvvəlcə qrupdan çıxmağı düşünürük. Əsas hədəfimiz isə qızıl medal qazanmaqdır. Ümid edirəm ki, azarkeşlərimizi sevindirməyi bacaracağıq".

Növbəti görüş avqustun 11-də Kameruna qarşı olacaq.

Yığmamız A qrupunda Sudan, Kamerun və Mərakeş seçmələri ilə birgə mübarizə aparır.



## Anna SKİDAN: "İkinci dəfə İslam Həmrəyliyi Oyunlarının qalibi olduğum üçün çox xoşbəxtəm"

"İkinci dəfə İslam Həmrəyliyi Oyunlarının qalibi olduğum üçün çox xoşbəxtəm". Bu sözləri Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında çəkicatma yarışlarında 70,23 metr nəticə ilə qızıl medal qazanan atletimiz Anna Skidan deyib. İdmançımız bildirib ki, belə imkanı yaratdığı üçün Azərbaycana minnətdardır.

"Təəssüratlarım çox müsbətdir. Çünki birinci olmaq həmişə xoşdur. Verdiyi dəstəyə görə komandamıza təşəkkür edirəm. Göstərdiyim nəticəyə görə də məmnunam".

Anna Skidan 2017-ci ildə Bakıda keçirilmiş İslamiadada 75,29 metr nəticə ilə qalib olmuşdu.

Qeyd edək ki, oyunlarda 56 ölkədən 4200 idmançı medallar uğrunda mübarizə aparır. Oyunlar vaxtı 483 dəst medal sahibini tapacaq.

V İslam Həmrəyliyi Oyunları 2021-ci ilin sentyabrında keçirilməli idi. Lakin koronavirus pandemiyası ilə əlaqədar oyunların 2022-ci ilə təxirə salınması məqsədəuyğun hesab olunub. İlk dəfə İslam Həmrəyliyi Oyunları Səudiyyə Ərəbistanında keçirilib. Dördüncü İslam Həmrəyliyi Oyunlarına isə Azərbaycan evsahibliyi edib.

## İkinci medalı taekvondoçumuz qazandı




Türkiyənin Konya şəhərində keçirilən İslam Həmrəyliyi Oyunlarında taekvondo yarışlarına start verilib. Yarışın ilk günündə dörd idmançımız mübarizəyə qoşulub.

Taekvondoçularımızdan Səyyad Dadaşov (54 kq) və Həşim Məhəmmədov (58 kq) mübarizəyə uğurla başlayaraq ilk döyüşlərində qələbə qazanıblar. Həşim ikinci qarşılaşmasında pakistanlı rəqibi Xan Haruna qalib gələrək yarımfinala vəsiqə alıb. Bu mərhələdə məğlub olan idmançımız bürünc medala sahiblənib.

Təəssüf ki, qadın taekvondoçularımız Röya Hacıyeva (53 kq) və Səidə Əliyeva (57 kq) ilk görüşlərində məğlub olaraq İslamiadanın medalları uğrunda mübarizəni dayandırıblar.

Taekvondo üzrə millimiz, baş məşqçilər Məmməd Abdullayev, Səbuhi Zülfüqarov və böyük məşqçilər Rəşad Məmmədov, Sənan Həşimovun rəhbərliyi ilə yarışda 14 idmançı ilə təmsil olunur.

Konyada taekvondo ustaları dörd gün ərzində mübarizə aparacaqlar.

## Ayşən ABDULƏZİMOVA: "Bayraqdar seçilməyim məsuliyyətimi artırıb"

"İslamiadaya qələbə ilə başlamaq əla motivasiya oldu. İki aydan çox idi ki, bu yarışa və AVRO-2023-ün təsnifat mərhələsinə hazırlaşırdıq".



Bunu qadın voleybolçulardan ibarət Azərbaycan milli komandasının kapitanı Ayşən Abduləzimova V İslam Həmrəyliyi Oyunlarında Seneqala qalib gəldikləri B qrupunun ilk oyunu barədə danışarkən deyib. O, qalibiyyət münasibətilə komanda yoldaşlarını və azarkeşləri təbrik edib: "İnanıram ki, uğurlu çıxışımızı davam etdirəcəyik və buradan Vətənə qızıl medalla dönəcəyik. Komandamıza uğurlar arzulayıram".

Azərbaycan komandasının bayraqdarlarından biri olan Abduləzimova bu etimadı qazanmağın qürurverici olduğunu söyləyib: "Bayraqdar seçilməyim yarışdakı məsuliyyətimi daha da artırdı. Bayrağımız hər zaman yüksəklərdə dalğalanmalıdır. Mən də bir idmançı kimi çalışacağam ki, bu yarışda qalib gələrək üçrəngli bayrağımızı qalib kimi də ucaldım".

Qeyd edək ki, Azərbaycan millisi B qrupunda növbəti matçını Əfqanıstan komandasına qarşı keçirəcək. Bu qrupda Kamerun yığması da mübarizə aparır.

## Gənclər və idman naziri stolüstü tennis komandasının üzvləri ilə görüşüb

Gənclər və idman naziri Fərid Qayıbov, nazir müavini Mariana Vasileva və Milli Məclisin deputatı Kamal Cəfərov V İslam Həmrəyliyi Oyunlarında Azərbaycanın stolüstü tennis komandasının üzvləri ilə görüşüb.

Özbəkistanla vacib oyun ərəfəsində keçirilən görüşdə nazir idmançılara qələbə arzulayıb və onların yüksək nəticələr əldə edəcəklərinə ümidvar olduğunu bildirib.

Qeyd edək ki, komandamız ilk oyunda Banqladeş seçməsinə 3:0 hesabı ilə qalib gəlib.

# Azərbaycanın beynəlxalq hava limanlarında iyul ayı ərzində yarım milyondan çox sərnişinə xidmət göstərilib

Azərbaycanın beynəlxalq hava limanları 2022-ci ilin iyul ayında 578 min sərnişinə xidmət göstərib. Bu göstərici 2021-ci ilin analoji dövrünün göstəricisindən 87 faiz çoxdur.



Heydər Əliyev Beynəlxalq Aeroportunun Mətbuat xidmətinin məlumatına görə, beynəlxalq reyslərdə 482 min nəfərə, ötən illə müqayisədə iki dəfədən çox sərnişinə xidmət göstərilib.

Bakı hava limanının baza aviadaşıyıcıları - AZAL və Buta Airways qeyd edilən müddət ərzində beynəlxalq reyslərdə 211 min sərnişinə, yəni beynəlxalq daşımaların ümumi sayının 44 faizinə xidmət göstərib.

2022-ci ilin iyul ayında Bakı hava limanına 30 xarici aviaşirkət müntəzəm uçuşlar həyata keçirib. Həmçinin bu ay Aktobedən Bakıya "Qazaq Air" aviaşirkətinin birbaşa reysləri açılıb.

İyul ayında Bakıdan ən populyar beynəlxalq istiqamətlər onluğuna Moskva, İstanbul, Antalya, Dubay, Tbilisi, Ər-Riyad, Abu Dabi, Şərcə, İzmir və Dammam daxil olub. Bu istiqamətlər üzrə ümumilikdə 300 min nəfərə xidmət göstərilib.

Heydər Əliyev Beynəlxalq Aeroportu (IATA: GYD) sərnişin və yük daşımalarının, uçuş-enmə əməliyyatlarının həcminə, aerovağzal kompleksinin sahəsinə və yük kompleksinin gücünə görə Azərbaycanda və regionda ən böyük hava limanıdır.

Cari ilin mart ayında Heydər Əliyev Beynəlxalq Aeroportu nüfuzlu "Skytrax World Airport Awards" Beynəlxalq Agentliyinin versiyasına görə MDB ölkələrində ən yaxşı hava limanı statusunu beşinci dəfə təsdiqləyib. Hava limanları üçün bu mükafat sənayedə keyfiyyət standartıdır.

Bundan əlavə, "Skytrax" tərəfindən Bakı hava limanı yüksək "5 ulduz" reytinqinə, həmçinin COVID-19 pandemiyası dövründə epidemioloji təhlükəsizlik üzrə maksimal reytinqə layiq görülüb.

# Cəbrayılın son 90 illik tarixinə işıq salan "Xudafərin"

"Xudafərin" qəzeti 1932-ci ildən nəşr olunur. Artıq 90 ildir ki, Cəbrayıl rayonunun ictimaiyyəti ilə ünsiyyətdə olan qəzet bu müddət ərzində oxucularının sevimlisinə çevrilib.

Bunun əsas səbəbi isə təbii ki, qəzetin qələm əhlidir. "Xudafərin"in müxtəlif dövrlərdə adlı-sanlı, tanınmış redaktorları olub - Adil Əbilov, Xasay Əliyev, Şahsuvar Yusifov, Qaryağdı Həsənov, Əfsər Məmmədov, İnqilab Əliyev, Fehruz Atakişiyev, Sirac Rüstəmov, Ədil Şərifov, Hafiz Hüseynov, Sərməst Seyidəliyev, Afər Əhmədov, Seyfəddin Əliyev, Sahib Abdullayev. Məhz onların sayəsində qəzet sarsılmaz bünövrə tutub, mənəvi inkişaf yolu keçib. Bir də Cəbrayılın adlı-sanlı, tanınmış ziyalılarının, yazarlarının demək olar əksəriyyəti "Xudafərin"in şinelindən çıxaraq püxtələşiblər. Bu mənada "Xudafərin" Cəbrayılın qələm adamlarının mənəvi yaradıcılıq mərkəzi rolunu da oynayıb. Şair İsmayıl İmanzadənin rəhbərliyi altında rayonda fəaliyyət göstərən "Ümid" Ədəbi Birliyi üzvlərinin seçmə şeir və nəsr nümunələrinin ilk dəfə "Xudafərin"də işıq üzü görməsi bunun təsdiqidir.



“Xudafərin harayından qalan mən!..”

XUDAFƏRİN

Qəzet 1932-ci ildən çıxır

Novruz bayramınız mübarək!

Baş redaktordan

90 yaşlı qəzetimiz

Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

"Lenin bayrağı" adı altında həyata vəsiqə alan, 1960-cı illərin əvvəllərində "Kolxozçu", 1990-cı illərin əvvəllərindən isə "Xudafərin" adı ilə nəşr olunan qəzet yeni adı ilə keçmiş sovet stereotiplərindən sıyrılmış, kommunist düşüncələrindən azad olmuşdur.

Məlumdur ki, 30 ilə yaxın Cəbrayıl camaatı erməni işğalı nəticəsində məcburi köçkün həyatı yaşamışdır. Bu ağır illərdə də "Xudafərin" cəbrayıllıların birlik rəmzinə, dərd-sərini bölüşdükləri mənəvi məkana çevrilmişdir. Qəzet imkanı daxilində həmyerlilərinin yurda qayıtmaq ümidlərini ölməyə qoymamış, "Xudafərin" adına, harayına sığınanların ümid ünvanı olmuşdur.

7 il baş redaktorun müavini, 14 il baş redaktor kimi fəaliyyət göstərdiyim zamanda həmişə bir arzum olmuşdur ki, insanlarımızla bərabər "Xudafərin" də məcburi köçkünlükdən qurtulsun, doğma Cəbrayılımıza qovuşsun. Artıq bu arzum çin olmuşdur. 2021-ci il oktyabrın 4-də Cəbrayılın işğaldan azad olunmasının ildönümünü Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə doğma Cəbrayılda qeyd etdik. Həmin tədbirə "Xudafərin" qəzetinin müxtəlif saylarını da aparmışdım. Cənab Prezidentlə görüşəndə onları təqdim etdim. Dövlət başçısı diqqətlə qəzetə göz gəzdirdi. Bu, mənim üçün bir sevinc, qürurverici an idi. Çünki ürəyimdəki arzuma çatmışdım - "Xudafərin" Ali Baş Komandanı - qalib sərkərdəni Cəbrayılda salamlayırdı.

Bütün bunlardan sonra heç şübhə etmirik ki, ağır illərin sınağından çıxan, yurddaşlarının qələbə və qayıdış inamını ölməyə qoymayan 90 yaşlı "Xudafərin" tezliklə Cəbrayıl sakinlərinin doğma yurda dönüşünün bələdçisi və rayonumuzda aparılan bərpa-qurculuq işlərinin tərənnümçüsü olacaq.

***ŞAKİR ALBALIYEV,***
***"Xudafərin" qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru***

# "Qarabağ"dan növbəti tarixi zəfər

## Ağdam klubu UEFA Çempionlar Liqasının pley-offuna yüksəldi

***UEFA Çempionlar Liqası***
***3-cü təsnifat mərhələsi***
***Cavab oyunu***
**"Ferensvaroş" (Macarıstan) - "Qarabağ" (Azərbaycan) - 1:3**
**Qollar: Adama Traore, 86 // Abdullah Zubir, 7, İbrahima Vadji, 55, 78**




Ağdamın "Qarabağ" klubu UEFA Çempionlar Liqasının pley-off mərhələsinə yüksəlib. Azərbaycan çempionu buna Macarıstan "Ferensvaroş"unu qitənin ən nüfuzlu klub turnirindən kənarlaşdırmaqla nail olub.

Ötən həftə I Bakıdakı ilk görüşündə 1:1 hesablı heç-heçə ilə kifayətlənən Ağdam klubu cütün taleyini səfərdə həll edib. Qurban Qurbanovun yetirmələri Budapeştdə rəqibinə qalib gəlməyi bacarıb. İlk yarıda Abdullah Zubir, fasilədən sonra isə iki dəfə İbrahima Vadji Macarıstan çempionunun qapısına yol tapıb. Son dəqiqələrdə macarlar bu toplardan birinin əvəzini çıxsa da, Azərbaycan çempionu səfərdən qələbə ilə ayrılıb - 3:1.

Bu qələbə ilə "Qarabağ" Çempionlar Liqasının pley-offuna yüksəlib. "Ferensvaroş" isə Avropa Liqasının pley-offunda oynayacaq.

Ağdam təmsilçisi növbəti raundda Çexiya "Viktoriya"sı ilə görüşəcək. "Qarabağ" avqustun 16-17-də evdə, 23-24-də səfərdə meydana çıxacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# Dünya yenidən qapanmaya gedə bilər

## Payızda koronavirus və meymunçiçəyi viruslarının daha kəskin yayılma ehtimalı var

Koronavirusla meymunçiçəyi hələ də bəşəriyyəti təhdid altında saxlamaqdadır. Yoluxuculuq qabiliyyəti kəskin olan bu viruslar sürətlə yayılır, mutasiyaya uğramaları nəticəsində yeni simptomları üzə çıxır. Qarşıdan gələn payız fəslində isə vəziyyətin daha da kəskinləşə biləcəyi proqnozlaşdırılır.



Belə ki, "Omikron" ştamının yoluxuculuq qabiliyyəti yüksək olan yeni növünün - "Kentavr"ın meydana çıxması ilə qonşu ölkələrdə vəziyyət dəyişib. Bildirilir ki, ötən həftə Rusiyada yoluxmaların sayı 60 faiz artıb. Bu yenidən vaksinlənmə tədbirlərinin genişləndirilməsinə səbəb olub. Həmçinin qapalı məkanlarda maskadan istifadə də tövsiyə edilir.

Dünya ölkələrinə gəldikdə, yoluxmaların sayının artması bəzi qapanmalara və qaydaların sərtləşdirilməsinə səbəb olub. Çindəki qapanmalar vəziyyətin ağırlaşmasından xəbər verir. Xüsusilə kurort zonalarında daha sərt qaydalar tətbiq edilir. Çinin Haynan adasında həftəsonu ictimai nəqliyyatdan istifadə dayandırılıb, insanların şəhər daxilində hərəkəti məhdudlaşdırılıb, turistlərin yola düşməzdən əvvəl COVID-19 testindən keçmələri tələb olunur. Bunun nəticəsi olaraq, 80 minə yaxın turist ölkələrinə qayıtmaqda çətinliklərlə üzləşib.

### "Omikron"un ştamlarına uyğun yeni peyvəndlər hazırlanır

Hazırda koronavirusun sürətlə yayılmasına səbəb olan "Omikron" ştamı ilə mübarizə yönündə səhiyyə qurumları yeni tədbirlər planı hazırlayır. Viruslardan müdafiədə isə əsas vasitə vaksinlərdir. "Biontech" şirkəti oktyabr ayına qədər "Omikron"a uyğunlaşdırılmış iki peyvəndin tədarükünə başlayacağını açıqlayıb. Bununla da, virusun yoluxuculuq qabiliyyətinin azalacağı ehtimal edilir.

Epidemioloqlar yoluxmaların artmasını pandemiyaya qarşı tədbirlərin yumşaldılması və ya tamamilə ləğv edilməsi ilə əlaqələndirirlər. Bunun nəticəsi olaraq yoluxucu ştamlar ölkələrin sərhədləri boyunca asanlıqla və daha sürətlə yayılır. Ancaq onu da qeyd etmək lazımdır ki, "Omikron" ştamı və onun altvariantlarının ölüm riski alfa, beta, qamma və ən təhlükəli delta növlərindən nisbətən xeyli azdır. Belə nəticənin əldə olunması isə tamamilə peyvəndləmə ilə əlaqəlidir. Buna görə də tövsiyə edilən dozada vaksinlər hər kəs tərəfindən vurulmalıdır.

Nəzərə alınmalı məqamlardan biri də "Omikron" ştamına yoluxmanın baş verdiyi təqdirdə testlərin verilməsidir. Bir çox hallarda bu növə yoluxanlar digər ştamlardan fərqli olaraq xəstəliyi daha yüngül formada keçirdiyinə görə qriplə qarışıq salırlar. Lakin mütəxəssislər vurğulayırlar ki, ölüm riski nisbətən az olsa da, yoluxmanın qarşısını almaq üçün PZR testlər mütləq edilməlidir. Nəticədə xüsusi risk qrupları bu xəstəliyi daha ağır keçirə bilərlər. Həmin qrupa yaşı 65-dən yuxarı olanlar, immun sistemi zəif olanlar, xroniki xəstələr və digərləri daxildir.

### Meymunçiçəyinin qeydə alındığı ölkələr artmaqdadır

Koronavirusla yanaşı, meymunçiçəyinə tutulma ilə bağlı da artım müşahidə edilməkdədir. Xəstəliklə bağlı araşdırmalar onu deməyə əsas verir ki, meymunçiçəyinin sürətlə yayılması daha ciddi addımların atılmasına səbəb ola bilər. Hazırda bu virusa 88 ölkədə 2700-dən çox yoluxma halı qeydə alınıb. Ümumdünya Səhiyyə Təşkilatı bunu fövqəladə vəziyyət kimi qiymətləndirərək dünya ölkələrini araşdırmaların aparılmasına və mübarizədə sayıqlıq göstərmələrinə çağırıb.

Hazırda meymunçiçəyi xəstəliyinin kəskin müşahidə olunduğu ölkə ABŞ-dır. Nyu York, San-Fransisko ştatlarından sonra Kaliforniyada da fövqəladə vəziyyət elan olunub. Bildirilir ki, fövqəladə rejimin tətbiqi ştatlarda yoluxmanın azalmasına və insanlar arasında maarifləndirmə tədbirlərinin aparılmasına kömək edəcək. Meymunçiçəyi virusuna yoluxan ölkələrin siyahısına son olaraq Moldova daxil olub.

Bu virusun qarşısını almaq üçün istifadə edilən çiçək peyvəndinin 85 faiz effektiv olduğu müəyyənləşdirilib. Buna görə də peyvənd hər kəsə deyil, yalnız xəstəliyə yoluxmuş şəxslərə və onlarla təmasda olanlara vurulur. Meymunçiçəyi virusu özünü baş ağrıları, bədənin hər hansısa hissəsində yaranan qabarıq səpkilər, yüksək hərarət, düz bağırsaqda iltihab və ağrı, limfa düyünlərində şişkinlik və əsasən bel ağrıları kimi əlamətlərlə özünü büruzə verir.

Hazırda Azərbaycanda meymunçiçəyinə yoluxma faktı qeydə alınmasa da, qonşu ölkələrdə müşahidə edilən xəstəliyin ölkəmizə də gəlməsi istisna edilmir. Ondan müdafiə üçün isə sadə gigiyenik qaydalar - əlləri tez-tez sabun ilə yumaq, dezinfeksiyaedici vasitələrdən istifadə etmək və fiziki təmasdan yayınmaq zəruridir. Virus fiziki təmasdan əlavə, yoluxmuş şəxsin əşyalarından da keçə bilir. Xəstəliyə dair simptomların müşahidə edildiyi təqdirdə isə mütləq həkimə müraciət etmək lazımdır.

Qeyd edək ki, meymunçiçəyinə qarşı ölkəmizdə bir çox qabaqlayıcı tədbirlər həyata keçirilib. Müvafiq olaraq virusu aşkarlayan testlər gətirilib, vaksin tədarükü görülüb. Geriyə isə hər kəsin özünü müdafiə etməsi qalır. Beləliklə, hər iki virusdan olduqca yan qaçmalı, immun sistemimizi gücləndirməklə, sadə gigiyenik vasitələrlə qorunmalıyıq.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *“Qaya” firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *“Region Press” MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *“Səma-M” MMC* | (012) 594-09-59 |
| *“Ziya” LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *“Pressinform” MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *“City press” MMC* | (055) 819-09-26 |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi fizika-riyaziyyat elmləri namizədi, Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dosenti

**RAMİN MAHMUDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6201
Sifariş 2212
Qiyməti 40 qəpik